# Gənclərdə ünsiyyət mühüm məsələdir

**Əminə Baba qızı Qədimova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
**E-mail:** aminaqadimova @admu.edu.az

**Rəyçilər:** p.ü.e.d., prof. L.N. Qasımova
psixol.ü.f.d., dos. Ü.M. Qəzvini

**Açar sözlər:** gənclərdə ünsiyyət, ünsiyyət formaları, ünsiyyət mədəniyyəti, ünsiyyətdə qarşılıqlı fəaliyyət

**Ключеые слова:** общение в молодости, культура общении е, формы общение, взаимодействие в общении

**Key word:** communication in youth, communication culture, forms of communicftion, interaction in communication

İnsanın zehni, fiziki və mənəvi inkişafı üçün onun gerçək aləm, canlı təbiət, cəmiyyət üzvləri və hadisələri ilə sıx ünsiyyətdə olması zəruridir.

İnsanın inkişafında başqaları ilə ünsiyyətdə olub əlaqəli fəaliyyət göstərmək böyük rol oynayır.

Şəxsiyyətlərarası münasibətlərin xarakteristikasının müəyyənləşdirilməsində "ünsiyyət" anlayışından xüsusi olaraq istifadə olunur. "Ünsiyyət" anlayışı ictimai münasibətlərin, xüsusilə də, "subyekt-subyekt" münasibətlərinin spesifik növünü əhatə edir. Bu münasibətlərin təhlili gedişində təkcə bir subyektin digərinə təsiri deyil, eyni zamanda onların qarşılıqlı fəaliyyəti, qarşılıqlı əlaqəsi, qarşılıqlı cəhdləri, qarşılıqlı təsiri, qarşılıqlı dərki, qarşılıqlı münasibətləri prooseslər də üzə çıxarır.

Hələ ilk insanda şüurla birlikdə nitq, danışmaq qabiliyyəti onun başqası ilə ünsiyyətdə olması əsasında yaranmışdır. İnsanlar öz varlığının lap ilk addımlarından etibarən təbiət qüvvələrinə qarşı mübarizə aparmağa, təbiətdən maddi nemətləri, zəruri yaşayış vasitələrini birlikdə əldə etməyə məcbur olmuşlar.

Elm təsdiq edir ki, insanın birlik, təsəvvür, məlumat və anlayışlarının, mühakimə və dünyagörüşünün inkişafı üçün onun gerçək aləmlə, adamlarla sıx əlaqədə və ünsiyyətdə olmağı, ictimai mühitdə böyüməsi və fəaliyyət göstərmək zəruridir.

Hər şeydən əvvəl, yadda saxlamaq lazımdır ki, şəxsiyyətin bütün xassə və əlamətlərinin formalaşması, habelə onun ünsiyyət və müxtəlif münasibətlər üzrə təcrübə toplaması fəaliyyətdə baş verir, xüsusi təşkil edilmiş, pedaqoji cəhətdən məqsədyönlü fəaliyyəti həm şəxsiyyətin əxlaq, əmək ictimai, estetik əlamətlərinin təzahür etməsi üçün həm də insan xarakterinin və fərdiyyətinin qiymətli xassələrini formalaşdırmaq üçün zəruri olan şərait yaradır. Ünsiyyətin işgüzar əsası, fəallıq, özfəaliyyət mənbəyi, həm yaradıcı imkanların inkişaf etdirilməsi vasitəsi, həm də ümumi məqsədə nail olmaq yoludur.

Bununla yanaşı, kollektivin daxili proseslərindən hər bir fəaliyyətlə bir başa deyil, vasitəli surətdə, ünsiyyət vasitəsilə, qarşılıqlı mübadilə prosesi vasitəsilə əlaqədardır.

Gənclərin kolektivdə münasibətlərin bu növü nisbətən son vaxtlar psixoloqların və pedaqoqların öyrəndikləri sahə olmuşşdur. Bəzi gənclər yaşıdlarının hörmətini qazanmışdır və onlarla ünsiyyətdə olmağı arzu edirlər. Elə gənclər də vardır ki, onlarla heç kim ünsiyyət saxla-

maq istəmir.

İctimai həyatda insanın başqaları ilə ünsiyyətdə olub qarşılıqlı fəaliyyət, bir-birinə qayğı, yardım və kömək göstərməsi onların ümumi inkişafına böyük təsir göstərir. Məsələn, adamlar kollektiv əmək prosesində bir-birilə yaxın, səmimi ünsiyyətdə olub bir-birlərinə qarşılıqlı qayğı, kömək göstərdikdə, mehriban yoldaşlıq şəraitində fəaliyyət göstərdikdə onlar arasında bir-birilərinə hüsn-rəğbət və məhəbbət hissləri, nəzakətlilik və qayğıkeşlik, insanpərvərlik, kollektivçilik yoldaşlıq və dostluq münasibətləri inkişaf edir və formalaşır.

İnsan arasında ünsiyyətin bir sıra formaları mövcuddur. Dil insanlar arasında mühüm ünsiyyət vasitəsidir. İnsan arzu və fikirlərini, mənimsədiyi elmi bilik və məlumatları, müəyyən işə, cəmiyyətə və adamlara hörmət, qayğı və münasibətlərini dil vasitəsilə ifadə edir, nümayiş etdirir. Düzgün, mənalı danışmaq, savadlı yaza bilmək bacarığı şəxsiyyətin ümumi inkişafı və mədəni olmasını göstərən mühüm əlamətlərdir.

Uşaqların qavradığı həyat həqiqətlərini, öyrəndiyi təlim materialını yadında möhkəm saxlayıb aydın və konkret ifadə etməsi, onun dilinin zənginləşməsini, zehni qüvvələrinin, xüsusən təfəkkürünün inkişafını və elmi biliklərlə silahlanmasını təmin edir, şəxsiyyətini təşəkkül etdirir. Uşaqlar ana dili vasitəsilə öz xalqının milli adət-ənənələrini, həyat və məişət qayda-qanunlarını, doğma yurdunun füsunkarlığını, xalqının milli mədəniyyətini, nağıllarını, rəqslərini, oyun və ədəbiyyatını, qəhrəmanlıq tarixini daha asan və aydın öyrənir və inkişaf edir.

İnsanın ümumi və mədəni inkişafında xarici dilləri mənimsəməyin böyük rolu vardır. Adam xarici dilləri yaxşı bilməklədünya xalqlarının mədəniyyəti, ədəbiyyatı və elmi naliyyətləri ilə yaxından tanış olur, onların mütərəqqi adət və ənənələrini, xalq nağıllarını, musiqisini. Oyun və rəqslərini öyrənir, onlardan zövq alır. Xarici dillər başqa xalqlarla mədəni əlaqəni genişləndirir, uşaq və gəncləri dünya xalqlarının mütərəqqi adət-ənənələrini, mədəniyyət, incəsənət və ədəbiyyatını sevib öyrənməyə təhrik edir, onlarda xalqlar dostluğu və beynəlmiləlçilik hisslərini inkişaf etdirir.

Şəxsiyyətin formalaşmasında kollektiv əmək, oyun və yarışları, görkəmli elm və incəsənət xadimləri, əmək və Qarabağ müharibəsi qəhrəmanları ilə görüşlər, məktublaşmalar da faydalı ünsiyyət formalarıdır. Belə maraqlı fəaliyyət formaları vasitəsilə uşaqlar bir-biri ilə müəyyən ünsiyyətdə olub birgə fəaliyyət prosesində bir-birinə qarşılıqlı qayğı, yardım və tələbkarlıq göstərir, nəzarət edir, düzgün, intizamlı, nəzakətli və ləyaqətli hərəkət edirlər.

Lakin gündəlik həyatımızda, insanların qarşılıqlı münasibətlərində müşahidə etdiyimiz kimi, belə keyfiyyətlərə yiyələnmək o qədər də asan deyil. son vaxtlarda insan ailinə diqqətin artması, elmi-texniki tərəqqi, genişlənən ekoloji təhlükə, millətlərarası münaqişələr ünsiyyət probleminə yeni baxış, onun tədqiqi üçün daha artıq enerji, yaradıcılıq axtarışları tələb edir.

Pedaqoji-psixoloji tədqiqatlar əsasında artıq çoxdan məlumdur ki, şagirdlərin tədris proqramının mənimsənilməsində və başlıca şərt müəllim-şagird ünsiyyətinin məzmunu, məktəbdə sağlam mənəvi iqlimin formalaşmasıdır. Məktəbdə ünsiyyətin mürəkkəb strukturu və əhəmiyyəti XX əsrin 70-ci illərindən ünsiyyəti pedaqoji problem kimi konkret tədqiqat obyektinə çevrilmişdir.

Ünsiyyətdən məmnun olmağı şərtləndirən mənəvi sərvətlərin: maraqların, rəylərin, həyat faktlarının və adamların, qarşılıqlı anlaşmanın, ümumiliyi məhz işgüzar, səmimi gənclər kollektivinin yaraılması prosesində tərbiyənin müstəqil vəzifəsi olmalıdır.

**Məqalənin aktuallığı.** Müasir şəraitdə dünyanın mənzərəsi psixoloji baxımdan ritual ünsiyyətdə sosial, peşəkar, yaxud fərdlərarası rolu oynamaq vacibdir. Belə vəziyyət ritual davranış üçün ünsiyyət şəraitinin dərk edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən, ünsiyyət məsələlərinin ibtidai dövrlərdən başlayaraq inkişaf dinamikasının öyrənilməsi həmişə actual-

lıq kəsb etmişdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, ünsiyyət problemi bir çox elmlərin öyrəndiyi əsas tədqiqat obyektlərindən biridir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, magistrlar və tələbələr istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Bakı, 2009.
2. Bayramov Ə., Əlizadə Ə. Sosial psixologiya. Bakı, 2003.
3. Əliyeva S. Ünsiyyət mədəniyyəti. Bakı, 2013.
4. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007.
5. Həmzəyev M., Əmiraslanova S. Ünsiyyət psixologiyası. Bakı, 2007.
6. Qabusnamə. Bakı, 2005.
7. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, 2008.
8. Seyidov S., Həmzəyev M. Psixologiya. Bakı, 2007.

**А.Б. Кадимова**

## Общение - важный вопрос для молодежи

## Резюме

В этой статье, говорится о развитии процесса общения между людьми. В процессе общения анализируются мысли, знания, мнения, переживания и чувства между людьми. Общение-сложное и многогранное рсихическое явление. Если общение является потребностью и необходимостью, культура общения-это качество. Это означает создание условий для правильного формирования коммуникативного и социально-психологического управления коллективом. Коммуникация является источником всех социальных детских рсихологических явлений. Общение также ведёт к формированию личности. В процессе общения люди обмениваются информацией друг с другом, взаимодействовать, понимать друг друга. Круг общения молодёжи ещё больше осложняется.

**A.B. Gadimova**

## Communication is an important issue for young people

## Summary

This  article discusses the process of establishing and developing communication between people. In the process of communication, thoughts, knowledge, opinions, experiences and feelings between people are analyzed. Communication is a complex and multifaceted mental phenomenon. If communication is a need and a necessity, a culture of communication is quality. It means creating conditions for the proper formation of communication and social and mental management of the child`s team/ Communication is the source of all social psychological phenomena. Communication also leads to the for mation of personality.

**Redaksiyaya daxil olub:** 14.04.2021